**Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Kollegiyasının 2013-cü il 17 oktyabr tarixli 100/02/001 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsində informasiya azadlığı ilə bağlı daxili icraat Qaydaları”nda dəyişiklik edilməsi barədə**

“İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1398-IVQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 1 noyabr tarixli 1504 nömrəli Sərəncamının 1.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Kollegiyası Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə”nin 5.11.6-cı yarımbəndini rəhbər tutaraq

**Q Ə R A R A  A L I R:**

1. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Kollegiyasının 2013-cü il 17 oktyabr tarixli 100/02/001 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsində informasiya azadlığı ilə bağlı daxili icraat Qaydaları”nın 1.2-ci bəndində “qərəzsizliyinin” sözündən sonra “,cinayət işləri üzrə ibtidai araşdırmanın normal gedişinin” sözləri əlavə edilsin.

2. Hüquq şöbəsi (Sənan Muxtarov) bu Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi məqsədilə 3 gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

**Kollegiyanın sədri** **Aydın Əliyev**